***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRINGING TECHNOLOGIES***

*UOT 371*

***Gülarə Hüseynağa qızı Kərimova***
*Bakı Dövlət Universitetinin*
*Pedaqogika kafedrasının dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0004-3372-9786*
https://doi.org/10.69682/arti.2024.91(4).56-61

## İGİDLİK, MƏRDLİK VƏ QƏHRƏMANLIQ TARİXİMİZDƏN GƏLƏN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZDƏN BİRİ KİMİ

***Гюлара Гусейнага гызы Керимова***
*доцент кафедры педагогики Бакинского Государственного Университета,*
*доктор философии по педагогике*

## ХРАБРОСТЬ, МУЖЕСТВО И ГЕРОИЗМ КАК НАЦИОНАЛЬНО-ДУХОВНЫЕ ЦЕННОСТИ ИСХОДЯЩИЕ ИЗ НАШЕЙ ИСТОРИИ

***Gulara Huseynagha Karimova***
*associate professor of the department of Pedagogy at Baku State University,*
*doctor of philosophy in pedagogy*

## BRAVERY, COURAGE AND HEROISM AS ONE OF OUR NATIONAL-SPIRITUAL VALUES FROM OF OUR HISTORY

**Xülasə.** Məqalədə igidlik, mərdlik və qəhrəmanlıq milli-mənəvi dəyərlər haqda məlumat verilir. Bu dəyərlərin tarixi kökləri açıqlanır, tarixi şəxsiyyətlərin igidliklə dolu nümunələr gətirilir. Eyni zamanda Azərbaycan pedaqoji ədəbiyyatlarında sözügedən problemin yeri və rolu işıqlandırılmışdır. Məqalədə orta məktəbin V-IX siniflərin ədəbiyyat və Azərbaycan tarixi dərslikləri problem baxımından araşdırılmış, mövzular sistemləşdirilmiş, onlardan nümunələr gətirilmişdir. Ümumiləşdirilmiş nəticə ilə məqalə yekunlaşdırılmışdır.
***Açar sözlər:*** igidlik, tarix, milli-mənəvi, dəyər, tədqiqatlar, məktəb, dərslik, şagird

**Аннотация.** В статье представлены сведения о национальных нравственных ценностях мужества, отваги и героизма. Раскрываются исторические корни этих ценностей, приводятся примеры полных мужества исторических личностей. В то же время в азербайджанской педагогической литературе освещаются место и роль рассматриваемой проблемы. В статье были рассмотрены учебники литературы и истории Азербайджана V-IX классов средней школы с точки зрения проблем, систематизированы темы, приведены примеры. Статья завершается обобщающим выводом.
***Ключевые слова:*** храбрость, история, национально-нравственная, ценность, исследования, школа, учебник, ученик

**Abstract.** The article provides information about the national moral values of courage, bravery and heroism. The historical roots of these values are revealed and examples of historical figures full of courage are given. At the same time, the place and role of the problem under consideration is highlighted in Azerbaijani pedagogical literature. In the article, textbooks of literature and history of Azerbaijan in grades V-IX of secondary school were examined from the point of view of problems, topics were systematized, and examples were given. The article ends with a general conclusion.
***Keywords:*** bravery, history, national-spiritual, value, studies, school, textbook, student

Tariximizdə igidlik milli-mənəvi dəyər kimi öz izlərini qoysa da o, həm də ümumbəşəri dəyər kimi əsrlərdən-əsrlərə köçürülmüşdür. Milli-mənəvi dəyərlərimiz sırasında möhkəmlənən igidlik ermənilər tərəfindən işğal olunmuş torpaqlarımızın 44 gündə geri alınmasında öz bariz nümunəsini göstərə bilmişdir. Nə qədər ki, xalq öz tarixini yazırsa, o zaman ön sıraya igidlik-qəhrəmanlıq milli-mənəvi dəyəri çıxır. Demək, bu milli-mənəvi dəyər daim aktual bir məsələ kimi özünü təzahür etdirir. Bu milli-mənəvi dəyəri aktual edən cəhətlərdən biri də yaşadığı dövrdə öz həyatlarını vətən üçün qurban verməyə hazır olan oğulların çoxluğundadır. Problemin öyrənilməsi üçün bir sıra tədqiqat üsullarına - müşahidə, müsahibə, anket sorğuları, eksperiment və s. müraciət olunmuşdur.

Aparılan araşdırmalar göstərdi ki, milli-mənəvi dəyərlərimizin öyrənilməsinə diqqət yetirən, onu böyüyən nəsillərə çatdıran çoxsaylı tədqiqatlarımız vardır. Bu sıraya Ə. Həşimov, F. Sadıqov, İ. Əliyev, İ. Həşimov, X. Səlimxanova, Y. Mustafayev, M. İsmayılov, S. Quliyev, B. Qurbanov, S. Orucova, N. Muxtarova, L. Qasımova, A. Həşimov, T. Vahabov, Q. Tağıyeva, Z. Əzimovanı və s. daxil etmək olar.

Sözügedən tədqiqatçıların əsərlərində milli-mənəvi dəyərlərimizdən, o cümlədən igidlik, mərdlik, qəhrəmanlıq məsələlərin-dən ətraflı bəhs olunmuşdur. A. Həsənov, L. Qasımova, S. Quliyev, X. Fətəliyevin tədqiqatlarında sözügedən problemlə bağlı ətraflı söhbət açılır. A. Həsənov "Azərbaycan uşaq ədəbiyyatındakı mənəvi dəyərlərdən kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə" adlı tədqiqatında göstərir ki, "Azərbaycan uşaq ədəbiyyatında göstərilən milli-mənəvi dəyərlərdən, xüsusən igidlik, qəhrəmanlıq, vətənə sədaqət, milli orduya məhəbbət, qəhrəman xalqa sevgi və s. günümüzün vacib məsələlərindən birinə çevrilməlidir".

L. Qasımova "Ümumtəhsil məktəbləri şagirdlərinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsində nəzəriyyə və təcrübəsi" tədqiqat işində problemlə bağlı ədəbiyyatları tədqiq edərkən onu aşağıdakı kimi ümumiləşdirə bilmişdir:

- Böyüməkdə olan nəslin milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsində igidlik, qəhrəmanlıq, vətənpərvərlik və s.-nin zəruri olduğu daim diqqətdə saxlanılmalıdır. Çünki torpaqlarına yad gözlə baxanlara cavab vermək üçün vətənin igid oğullarına daim ehtiyac vardır.

Ə. Həşimovun "Azərbaycan şifahi xalq ədəbiyyatında tərbiyəvi fikirlər" adlı tədqiqatından bütövlükdə milli-mənəvi dəyərlərdən söhbət açılsa da, igidlik, qəhrəmanlıq, mərdlik dəyərlərinə üstünlük verilmişdir. "İgid ölər, adı qalar", "İgid basdığını kəsməz", "İgid odur atdan düşə, atlana, igid odur hər əzaba qatlana" və s. bu qəbildəndir.

İ. Əliyevin tədqiqatlarında da bu problemə geniş yer verilmişdir. Bütün bunlar onu deməyə əsas verir ki, bu gün gənclərimizin vətənpərvər kimi formalaşmasında önəmli yerlərdən birini tutan igidlik, mərdlik, qəhrəmanlıq daim tədqiq olunmağa zərurət yaratdığı kimi daim tədqiqatların aktual məsələlərindən birinə çevrilməlidir.

İgidlik – qorxmazlıq, cəsarətlilik, mərdlik simvoludur. O, heç bir cəfa və əziyyətdən qorxmayaraq qarşıya qoyduğu məqsəd üçün mübarizə kimi səslənir. Bu anda iradə, cəsarət əsas motivə çevrilir ki, bu da böyüyən nəslin həyat salnaməsi kimi səciyyələnir. Cəldlik, çeviklik, qüvvətlilik, igidlik, elastiklik, sürətlilik, qətiyyətlilik kimi dəyərlər iradi-əxlaqi adətlərin sayəsində öz həllini tapa bilir. Ədalətli davranış mexanizmini tədqiq edən psixoloq D.N. Uznadzenin fikrincə "İradə möhkəmliliyinin əsas sisteminin anadangəlmə meyli ilə heç bir əlaqəsi yoxdur. İradənin inkişafı aydın şüurdan asılıdır. Hər hansı müsbət fəaliyyət prosesində insanın mənəviyyatı zənginləşir ki, bu da onun əxlaqi davranışına təsir göstərmiş olur.

Tarixi araşdırarkən igidlik, cəsurluq sirlərinə yiyələnən xalqların qəhrəmanlıqla dolu yolunu görmək olur. Ucsuz-bucaqsız Sibir və Altay çöllərində, Çin ətrafında Asiya və Avropanın, o cümlədən, İran və Qafqazın müəyyən ərazisində çox qədim dövrlərdən məskunlaşmış türklərin tarixi, etnoqrafiyası, həyat tərzi, dünyagörüşü, mədəniyyəti barədə fundamental elmi tədqiqat işləri aparmış görkəmli türkoloq L.N. Qunilyov "Qədim türklər" əsərində tariximizdən İstəris xaqan, Kapağan xaqan, Kültiğin, Bilgə xaqan və b. sərkərdələrin ibrətamiz həyat yollarından geniş söz açır. L.N. Qunilyova görə türklərin müharibələrdə qazandıqları zəfər yürüşləri onların həyat tərzinin ayrılmaz tərkib hissəsi olan igidlik məktəbinin inkişafı ilə bağlı idi".

Türk xalqlarının mifologiyasını, tarixinin ayrı-ayrı dövrlərini, adət və ənənələrini, ordu intizamını, habelə türk döyüş taktikası və strategiyasını araşdıran Bahəddin Ögəl Çin mənbələri əsasında qələmə aldığı qədim türk tarixinin geniş bir hissəsini əhatə edən "Böyük Hun İmperiyası" əsərində hunların genezisi, həyat tərzi, igidliyi haqda dəyərli məlumatlar verir. Həmin əsərdə türk dövlətinin yenilməz cahangirləri, misilsiz sərkərdələri Atilla, Mete və başqalarının hərb sənətindən, ordu təlimi və intizamından, igidliklə dolu fəaliyyətlərindən, onların heybətli görkəmindən söhbət açılır. Əzəmətli və möhtəşəm türk səltənətinin orta əsrlərdə heyrətamiz igidlikləri, mükəmməl döyüş səhnələri, hərbi bacarığa malikliliyi ilə seçilən əsgər və sərkərdələri ilə tarixin yaddaşında qalması danılmaz həqiqətlərdir.

Türk xalqlarının milli-bəşəri dəyərini əks etdirən mənbələrindən biri olan Nizamülmülkün "Səyahətnaməsi"ndə də ordu işi, ölkənin idarəolunması məsələlərindən, xalqın cəsurluğundan bəhs olunur. Tarixi fakt və hadisə, şəxsiyyətlərin həyatı təsdiq edir ki, Azərbaycan hökmdarları yadellilərə qarşı həmişə döyüşkən və mübariz mövqe tutmuş torpağın azadlığı və bütövlüyü naminə döyüşə hazır olmuş, igidlik vı mərdlik göstərmişlər. Azərbaycan tarixinin müxtəlif dövrlərində hünər və igidlikləri ilə əbədiləşib nümunələrə çevrilmiş soydaşlarımızı səciyyələndirən keyfiyyətlər sırasında igidlik, cəsurluq, mərdlik elementlərinin xüsusi yer tutduğu tədqiqat nəticəsində aydın olunmuşdur. Albaniya hökmdarı Varaz oğlu Cavanşir haqqında mənbələr göstərir ki, o hələ yeniyetmə ikən fərasəti, diribaşlığı, qorxmazlığı ilə seçilmişdir. Yüksək hərbi sirrə yiyələnmiş "Cəsus, görkəmli və gözəl sərkərdə qartal kimi cəld, əsgər kimi qorxmaz və igid idi. Döyüşdə iki düşməni öldürəndən sonra üç ağır yara alan, atı yaralı Cavanşir həmləlləri dəf edə-edə döyüş meydanından keçərək şah sarayında hörmətlə qarşılanmışdır. Dağdağın matəm qəsidəsində "cəsur, igid, heybətli, aslan", başçı İsxan və qəhrəmanların məhəbbət və qorxudan tabe olduqları Cavanşir bütün zəfər və igidliklərə məhz hökmdar ailəsində xüsusi müəllimlərdən aldığı hərbi təlim, fiziki hazırlıq, fiziki inkişaf nəticəsində nail olmuşdur. Yaşadığı dövrün tələbləri və coğrafi məkanın qorunması zərurəti Cavanşirdən pəhləvan bir döyüşçü, bir sərkərdə kimi xüsusi təlim tələb etmişdir. Cəld və çevik hərəkətlər, dəqiqlik, igidlik, cəsurluq tələb edən manevrlər, güclü zərbələr, sərbəst ox atmaq, at çapmaq bütün zamanlarda şahzadələrə verilən tərbiyənin əsasını təşkil edir.

İgidlik və qəhrəmanlıqlarla dolu tarixi faktlardan biri də Şəmsəddin Eldənizlə bağlıdır. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz uşaqlıq dövründə həddən artıq xəstəhal, zərif və cılız bir uşaq olmuşdur. Dərbəndin qul bazarından bir dəstə qulla satın alınan Eldəniz bədəncə zərif və çəlimsiz, o cümlədən çirkin olduğundan öz ağasına pulsuz verilmişdir. Qulların Dərbənddən İraqa aparıldığı yolda havalar isti olduğundan karvan gecələr yol gedərdi. İki dəfə yuxulayıb arabadan yıxılan Eldənizi ağası yolda qoyub getmişdi. Səhər yuxudan ayılan Eldəniz böyük fərasət və cəsarətlə axşamayaxın özünü güclə karvana çatdıra bilmişdir. Çox keçmədən Səlcuq xanədanında xidmətə başlayan Eldəniz qoçaqlığı, cəsarətliliyi, diribaşlılığı ilə diqqəti cəlb etmişdir. O, at çapmaq, ox atmaq, nizə tutmaq, qurşaq tutmaq yarışlarında, bir sözlə bütün işlərdə döyüşkənlik, igidlik göstərmişdir. Dərin zəkasına, böyük hünərinə, qorxmazlığına və igidliyinə görə Eldəniz Sultan Məsudun dərin rəğbətini qazanır və ondan Arzan torpağını bəxşiş alır. Atabəylər kimi möhtəşəm bir dövlətin inkişaf edib möhkəmlənməsində misilsiz xidmətləri olan Eldəniz bir çox müharibələrdə iştirak etmiş, nizami ordusu, güclü pəhləvanları ilə qüdrətli ölkəyə meydan oxumuşdur. Şəmsəddin Eldənizin bu böyük qələbələrinə səbəb onun döyüşçü və siyasətçi keyfiyyətlərinə malik olması idi.

Mərdlik, əzilməzlik, qəhrəmanlıq simvolu olan Alp Arslanın igidliyi zəmanəsinin seçilən adamlarını, şöhrətli hərb xadimlərini heyran qoymuşdur. Ulu qəhrəmanların qorxmaz xarakteri, qürur və ləyaqəti və s. bağlı çoxlu tarixi həqiqətlər mövcuddur. Alp Arslanın oğlu Məlik şah da belə bir tarixi-ictimai, iqtisadi-mədəni mühitdə böyümüş, bütün qələbələrini cəsarətliliyi sayəsində qazanmış, Bağdaddakı məsvərətdə dünya hökmdarı olmaq planını açıqlamışdır. Bütün bu qeyd olunan tarixi həqiqətlər Azərbaycan xalqının igidlik, qəhrəmanlıqla dolu olan salnamələrinin mətnləridir. Demək, məktəblilərin igidlik və qəhrəmanlıq ruhunda tərbiyə etmək əlçatandır. Buna həm orta məktəblərin V-

IX siniflərində tədris olunan şifahi xalq nümunələri: nağıllar, dastanlar, atalar sözləri, o cümlədən bədii əsərlərdən gətirilən nümunələr igidlik, mərdlik elementləri ilə zəngindir. Bu zənginliyi məktəblilərə çatdırmaq müəllimdən böyük ustalıq tələb edir. V sinifdə ədəbiyyat fənninin tədrisi üçün nəzərdə tutulan "Məlikməmməd". atalar sözləri, "Göyərçin əfsanəsi" bu qəbildəndir. Nağıllar insanların yaşayış tərzini, həyata baxışını, insanlara münasibətini bədii boyalarla ifadə edir. Təsadüfi deyildir ki, nağılları xalq məktəbi adlandırırlar. Nağıllar insan mənəviyyatını, əməllərini, düşüncələrini əks etdirir. Nağılların qəhrəmanları ağıllı, tədbirli, igid, çətinliyə dözən, insanların əlindən tutan, bir sözlə əsl qəhrəman kimi göstərilir.

V-IX siniflərin tarix dərsliklərində milli-mənəvi dəyərlərimizdən olan igidlik, qəhrəmanlıq, torpağa-elə bağlılıq və s. haqda mətnlər geniş əhəmiyyət daşıyır. Bu kitab xalqın milli-mənəvi dəyərlərini özündə birləşdirir. O, Azərbaycan xalqının vətənpərvərlik, elə-obaya, torpağa bağlılıq, qəhrəmanlıq, igidlik, sədaqətlilik, dözümlülük, yüksək əxlaqilik dəyərlərindən soraq verir. Dastanda kişilərlə bərabər, qadınların da igidliyindən, qəhrəmanlıqlarından danışılır. Dastanda qadın döyüşdən qayıdan ərinin dəstəsindən oğlunu görmədikdə üsyan edir. O, qırx incəbelli qızla oğlunu axtarmağa gedir. Oğlunun yaralandığını görür, dağ çiçəyi, ana südü ilə oğlunu sağaldır. Digər bir boyda isə Banuçiçək Beyrək ilə yarışır, onunla ox atır, at oynadır, güləşir. Oğlunu əsirlikdən xilas etmək üçün Salur Qazan düşmənlə döyüşə gedir. Ərinin də gəlmədiyini görüb Burla Xatun qırx incə belli qız, igid oğlanlarla Qara ayğırına minib başının tacı olan ərini axtarmağa gedir. O, düşmənlərlə vuruşur, ona kömək etmək üçün gəlmiş oğuz igidləri ilə birlikdə düşmənə qalib gəlir. At çapmaq, döyüşə hazır olmaq, at belində gəzib-dolaşmaq oğuz elinə mənsub cəhətlərdəndir. Boyda Dirsə xanın Xatununun fiziki sağlamlığı imkan verir ki, o da kişilər kimi igidlik göstərə bilsin. O, lazım gəldikdə at çapmağı bacarır, xan atasından qoşun alıb onunla döyüşə gedə biləcək səviyyədə cəngavər və bahadur keyfiyyətlərinə malikdir. Boyu uzun Burla Xatun kafirin qara bayrağını qılınclayıb yerə atır. Dastanda sevilən qadın obrazlarından biri də Selcan Xatundur. O, çox igid, cəngavər və sədaqətlidir. Selcan Xatun türk dünyasının eposunda cəngavər qadının təkmilləşmiş modelidir. O, yuxuya gedərək dəstəsindən uzaq düşmüş sevgilisi Qanturalı qoruyur, çətin məqamda ondan köməyini əsirgəmir. Selcan Xatun çox alp igid, yenilməz qəhrəman kimi hərəkət edir. O, Qanturalı düşmən əlindən ala bilir.

Dünya qəhrəmanlıq dastanları arasında, istərsə də türk dünyasında hər hansı padişahın, xaqanın, yaxud başqa bu kimi hökmdarın madar qızının qəlbinə sahib olmaq aşiqdən misilsiz hünər, igidlik və qəhrəmanlıq tələb edirdi. Danılmaz faktdır ki, qədim "Kitabi-Dədə Qorqud" dastanında Burla Xatun, Banuçiçək, Selcan Xatun, Koroğluda Nigar xanım, anası Sara xanım, Şah İsmayılın arvadı Taclı xanım, Fətəli xanın arvadı Tutubikə, Qaçaq Nəbinin Həcəri kimi qəhrəman Azərbaycan qadınları ilə bir düşüncə, ağıl və şücaət, igidlik nümunəsi göstərmişdilər ki, onların həyat yolu bu gün düşmənlə üz-üzə vuruşa biləcək qızlarımızın zəfər və ləyaqət amalına çevrilmişdir. Bu gün Azərbaycanın qorxmaz, igid Salatınları, Mətanətləri, Gültəkinləri qorxmazlıq, igidlik simvolu kimi səciyyələndirilirlər.

VII sinfin Azərbaycan tarixi dərsliyində verilmiş "Koroğlu" eposu da bu qəbildəndir. Tarixi qəhrəmanlıq eposu olan "Koroğlu"da xalq pedaqoji-ictimai fikrin maraqlı cəhətləri də öz əksini tapmışdır. Koroğlu dəliləri güclü, cəsur, igid və cəsarətlidirlər. Koroğlu və onun dəliləri heç də gücsüz, zəif adamlarla vuruşmurlar. Onlar xalqa əziyyət verən, zülmkarlara qarşı vuruşurlar. Koroğlunun Həmzə və ya qara qulu sınamaq üçün igidlik mövzusunda çalıb-çağırması Dəmirçioğlunun, onların cəsarət və qoçaqlıqları əsərin ana xəttini təşkil edir. Dəli Həsən, Dəmirçioğlu, Gürcüoğlu Məmməd, Eyvaz, Bəlli Əhməd, İsabala, Dəli Mehtər, Tüpdağıdan, Toxmaqvuran, Tanrıtanımaz və b. dəlilər igidlik, mərdlik, qoçaqlıq səviyyəsinə görə seçilən qəhrəmanlardandır. Ədalətli döyüşlərdə Koroğlunun rəqibləri bu el qəhrəmanına asanlıqla məğlub olmurlar. Belə cəsarətli döyüşçülərdən biri də Ərəb Reyhandır. Ərəb Reyhan Türkmən bəylərindəndir. Özü də çox igid adam olmuşdur. Həqiqət və ədalət carçısı olan xalq öz idealının bütövlük və qüdrətini daha əzəmətli və qabarıq vermək üçün onun düşmənlərini də döyüşkən, mübariz və güclü təsvir edir. Koroğlu Ərəb Rey-

hanı tanıyırdı. Onunla üz-üzə gəlməsə də, bu haqda çox eşitmişdir. Bilirdi ki, o, güclü, qüdrətli, igid bir adamdır. Azərbaycan xalqının əfsanəvi qəhrəmanı Koroğlu V sinfin "Ata yurdu", VIII sinfin "Azərbaycan tarixi" dərsliklərində Cəlalilər hərəkatı, "Koroğlu" mətnləri sözügedən problemə həsr olunmuşdur. Dastanda cəsarətlilikləri, cəsurluqları ilə seçilən igidlər Koroğludan heç də geri qalmırlar. Qəhrəmanların qələbə və hünəri bir neçə amillə bağlıdır. Bunlardan biri fiziki güc və mənəvi-əxlaqi kamillikdir. Koroğlunun Qarsa səfəri ilə bağlı hissəsində oxuyuruq ki, Koroğlu Dəli Həsənlə ilk dəfə qarşılaşır, onu sazla-sözlə başa salmağa çalışır. Bu mümkün olmadıqda fiziki gücünü göstərməli olur. Onlar misilsiz ustalıqla qurşaq yapışırlar. İntəhasız cəsur igidlər sonradan məslək və əqidə qardaşına çevrilirlər. Tədqiqat baxımından maraq doğuran cəhətlərdən biri də budur ki, dastan qəhrəmanlıqları xalqın ictimai tələb və milli mənafeyinə, mentalitetinə uyğun olaraq igid və qəhrəman böyüyürlər. Xalqın yaratdığı pedaqoji dəyərlərə, yaradıcı ənənələrə əsaslanaraq gənc qəhrəmanlar olduğu kimi şagirdlərə çatdırılır.

Koroğlu ilə Dəli Həsən qolunda da igidliyi hələ heç kimə bəlli olmayan Koroğlu hamını qorxu altında saxlayan yollar cəngavəri düşmənə aman verməyən Dəli Həsənlə qarşılaşır. Koroğlunun igidliyi Dəli Həsənə güc verir, onu daha da cəsarətli edir. Göründüyü kimi igidlik, mərdlik, qəhrəmanlıq problemi orta ümumtəhsil məktəblərində tədris olunan əksər fənlərin məzmununda öz ifadəsini tapmışdır. Onların şagirdlərə necə çatdırıldığını yoxlamaq məqsədilə V-IX sinfin ədəbiyyat və Azərbaycan tarixi fənlərini tədris edən müəllimlərlə aşağıdakı suallarla müraciət olundu:

S. – Tədris etdiyiniz mövzulardan təqribən neçəsində igidliklə bağlı məsələlərə yer verilmişdir.

C. – Onu saymamışıq, tədris edəndə görmək olur.

S. – Hansı yollarla şagirdləri igidlik, qəhrəmanlıq ruhunda tərbiyə edirsiniz?

C. – Sinfin səviyyəsinə uyğun olanları seçirik.

S. – Siz insana bilirsinizmi şagirdləri igidlik, qəhrəmanlıq ruhunda tərbiyə edə bilirsiniz?

C. – Onlarla aparılan söhbətdən bunu görə bilirik.

Müəllimlərlə keçirilən sorğuların cavabları çox da qaneedici olmasa da, hiss olunur ki, müəllimlər şagirdlərin bu ruhda tərbiyəsinə önəm verirlər.

Aparılan araşdırmalar göstərir ki, V-IX siniflərin Azərbaycan tarixi dərsliklərində verilmiş mətnlərin əksəriyyəti bu qəbildəndir. Dərslikdə verilmiş "Yadellilərə qarşı mübarizə" mətnində Qarabağda, Şirvanda, Şəkidə və İran ağalığına qarşı üsyanlardan, Hacı Çələbinin cəsarətliliyindən, Ağa Məhəmməd şah Qacarın hücumları və onlara cavablarından bəhs olunur. Mətnin tədrisində müəllimin Hacı Çələbinin dar ağacı altında nitqinin Nadir şahın xoşuna gəlməsini bildirməsi və onun dediklərinin şagirdlərə çatdırması sözün əsl mənasında igidliyin, cəsurluğun, onları içində yaşada bilməsinin bariz nümunəsidir. Dərslikdə verilmiş "Cavad xan" mətni də igidlik, qəhrəmanlıq nümunəsidir. Cavad xan ruslara qarşı vuruşan cəngavər idi. 1786-1804-cü illərdə Gəncə xanı olan Cavad xan Qacar tayfasının Ziyadoğlular nəslindən idi. Sağlam bədənli, vüqarlı, cəsur, igid Cavad xan vətənin azadlığı uğrunda canını belə qurban verməyə hazır olan qəhrəman övladlardandır. Cavad xanın qadını cəsarətli Bəyim xanım da igidliyi ilə seçilir. Döyüş meydanında Cavad xandan geri qalmır.

Aparılan eksperiment və sorğuların nəticəli göstərir ki, şagirdlərin cəsarətli, igid və qəhrəman kimi tərbiyə olunmalarına imkan verən mövzular çoxdur. Şagirdlər də bu işə çox həvəslidirlər. Bu ondan irəli gəlir ki, yeniyet-mələr igidliyə, qəhrəmanlığa aid hadisələrin iştirakçısı olmağa çox maraqlıdırlar. Bu baxımdan da belə mətnlərin tədrisində onlar çox maraqla dinləyiciyə, iştirakçıya və icraçıya çevrilə bilirlər. Bütün bu deyilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar:

- Orta məktəblərin V-IX siniflərində şagirdlərdə milli-mənəvi dəyərlərə məhəbbət hissinin formalaşdırılması üçün kifayət qədər mətnlər vardır.
- Mətnlərdə verilmiş igidlik, qəhrəmanlıq nümunələrini şagirdlərə çatdırmaq üçün müvafiq üsul və vasitələr düzgün seçilməlidir.
- Şagirdləri igidlik, qəhrəmanlıq ruhunda tərbiyə etmək üçün ermənilər tərəfindən işğal olunmuş torpaqlarımızın 44 gündə alınmasında

igidlik göstərən övladlarımızdan nümunə gətirmək məqsədəuyğundur.

- Şagirdlərə dəmir yumruq anlayışı ilə bağlı məlumat vermək, sənədli filmlər göstərmək əhəmiyyətlidir.

- Azərbaycanın Ali Baş Komandanı, Prezident İlham Əliyev cəsarətli, qorxmaz qəhrəmanlıq səhnələri ilə dolu işləri haqda şagirdlərə dönə-dönə məlumat vermək və onları döyüş iştirakçılarının şəkillərini toplamağa və fotoalbom düzəltməyə sövq etdirmək problem baxımından əhəmiyyətlidir. Bütün bunlara əməl etmək problem baxımından çox önəmlidir.

**Problemin aktuallığı.** Yeniyetmələrin igidlik, mərdlik, qəhrəmanlıq, milli-mənəvi dəyərlərin aşılanması ruhunda tərbiyə edilməsi işin aktuallığını təşkil edir.

**Problemin yeniliyi.** Ədəbiyyat və Azərbaycan tarixi dərslikləri problem baxımından araşdırılmış, mövzular sistemləşdirilmiş, onlardan nümunələr gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Əldə edilmiş nəticələr yeniyetmələrin milli-mənəvi ruhda tərbiyə edilməsində, dərsliklərin, dərs vəsaitlərinin və elmi-tədqiqat işlərinin hazırlanmasında istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Aslanlı, M.İ. Azərbaycan ədəbi və ictimai-pedaqoji fikrində fiziki tərbiyə. / M.İ. Aslanlı. – Bakı: Azərnəşr, -2008. -424 s.
2. Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə. / Z.M. Bünyadov. – Bakı: Azərnəşr, – 1989. – 336 s.
3. Həşimov, Ə.Ş. Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə. / Ə.Ş. Həşimov. – Bakı: Maarif, – 199. –225 s.
4. Həsənov, A.M. Azərbaycan uşaq ədəbiyyatında əks olunmuş mənəvi dəyərlərindən kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə. – Bakı: İşıq, – 1997. – 283 s.
5. Qasımova, L.N. Pedaqogika. / L.N. Qasımova, R.M. Mahmudova. – Bakı, 2021.
6. Qasımova, L.N. Ümumtəhsil məktəbləri şagirdlərinin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəriyyəsi və təcrübəsi. Ped.elm.dok.dis. – Bakı, –2005. – 301 s.
7. Qumilyov, L.N. Qədim türklər. / L.N. Qumilyov. – Bakı: Gənclik, – 1983. – 536 s.
8. Nizamülmülk, Siyasətnamə. – Bakı: Elm, – 1989. – 212 s.

**E-mail:** mansur.manerov@mail.ru
**Redaksiyaya daxil olub:** 08.07.2024.